# "Laçın Zirvə görüşü mahiyyətcə yeni bir geosiyasi arxitekturanın təməlidir"

**"Prezident İlham Əliyev işğaldan azad edilmiş Laçında mayın 28-də - Azərbaycanın Müstəqillik Günündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Şahbaz Şəriflə görüşdü. Azərbaycan, Türkiyə və Pakistan arasında üçtərəfli Zirvə görüşü təkcə rəsmi mərasim deyil, həm də Cənubi Qafqaz və onun hüdudlarından kənara təsir edəcək dərin geosiyasi proseslərin əksi idi.**

**Zirvə görüşü bir-birinə bağlı üç strateji axının - ortaq mədəni kimlik, regional təhlükəsizlik və iqtisadi əməkdaşlığın təcəssümü idi. Liderlər çıxışlarında Türk mədəniyyətinə və İslam irsinə əsaslanan, eyni zamanda müasir və realist siyasi gündəliyə malik bir ortaq kimliyi vurğuladılar. Prezident Əliyevin açılış nitqi suverenlik, ərazi bütövlüyü və kollektiv təhlükəsizlik kimi ümumi dəyərlərə əsaslanan "əbədi qardaşlıq" ideyasını bir daha təsdiqlədi. Bu görüş sadəcə diplomatik jest deyildi. O həm Rusiya, həm də Qərbin təsirinə qarşı çoxqütblü və müstəqil bir yanaşmanın təzahürü idi. Türkiyənin vasitəçi rolu onun regional ambisiyalarını Azərbaycanın orbitinə bağlayır. Pakistanın iştirakı isə Cənubi Asiya ilə həmrəyliyin göstəricisidir və bu miniittifaqın təsir dairəsini Benqal körfəzinə qədər genişləndirir".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yəhudi media mərkəzinin politoloqu Rüstəm Tağızadə söyləyib.

O qeyd edib ki, enerji və nəqliyyat sahələri Zirvə görüşündə əsas müzakirə mövzularından biri olub: "Prezident İlham Əliyev Azərbaycanın Türkiyəyə 20 milyard dollar sərmayə qoyduğunu, Pakistanın isə 2 milyard dollarlıq layihələrini maliyyələşdirməyə hazır olduğunu bildirdi. Ərdoğan son dərəcə strateji aspekt təşkil edən nəqliyyat sahəsində "İnkişaf Yolu", "Orta Dəhliz" və "Şimal-Cənub nəqliyyat dəhlizi" kimi layihələrə birlikdə töhfə verəcəklərini qeyd etdi. Bu infrastruktur təşəbbüsləri Türkiyə və Pakistan bazarlarını Azərbaycanın qaz kəmərləri və Xəzər limanları ilə birləşdirərək, Rusiya və İrandan yan keçən yeni qitələrarası ticarət arteriyasının əsasını qoyur. Bu, Süveyş və Bosfor kimi dəniz marşrutlarından və İran-Rusiya dəhlizlərindən asılılığı azaltmaqla daha sabit alternativ təklif edir".

Təhlükəsizlik sahəsində də əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu deyən politoloq bildirib ki, Prezident İlham Əliyev birgə hərbi təlimlərdən və texnoloji layihələrdən danışıb.

"Süni intellekt, kibertəhlükəsizlik və kosmik texnologiyalar kimi yüksək texnologiyalı sahələrdə əməkdaşlıq da gündəmə gətirilib. Bu isə ənənəvi təhlükəsizlik modellərindən fərqli olaraq gələcəyə yönəlik strateji çərçivə yaradır.

Bu üçtərəfli təhlükəsizlik mexanizmi NATO və KTMT kimi klassik ittifaqlara alternativ olaraq meydana çıxır. Azərbaycan bu çərçivədən Rusiyanın təsirini balanslaşdırmaq üçün istifadə edir, Türkiyə NATO-dan kənarda öz mövqeyini gücləndirir, Pakistan isə Çin və ABŞ-nin təsirindən kənarda yeni müdafiə tərəfdaşlığı axtarır", - deyə Rüstəm Tağızadə vurğulayıb.

Onun sözlərinə görə, Moskva bu üçtərəfli blokun Cənubi Qafqazdakı mövcudluğunu öz maraqları üçün çağırış kimi qəbul edir. Ermənistanla təhlükəsizlik münasibətlərini davam etdirməsinə baxmayaraq, Rusiya indi diversifikasiya etməyə çalışan güclü üçlüklə qarşı-qarşıyadır. Brüssel və Vaşinqton isə bu "Ankara-Bakı-İslamabad oxunu" diqqətlə izləyir. Onlar bu təşəbbüsün antiqərb bloklaşması yaradacağından narahatdırlar. Lakin Avropa üçün də bu dəhlizlər enerji və təchizat təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır.

"Laçında baş tutan Zirvə görüşü, sadəcə, siyasi simvolizm deyil, həm də mahiyyətcə yeni bir geosiyasi arxitekturanın təməlidir. Azərbaycan, Türkiyə və Pakistan enerji, nəqliyyat və təhlükəsizlik sahələrində talelərini birləşdirərək Avrasiya məkanında həm Rusiyanın tarixi təsirinə, həm də Qərbin üstün mövqeyinə meydan oxuyan yeni bir dövrə qədəm qoyurlar", - deyə politoloq qeyd edib.

Azərbaycan. - 2025.- 1 iyun (№113).- S.4.